**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**TALEH BALAĞA OĞLU ƏKBƏROV**

# SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ STİMULLAŞDIRICI AMİLLƏRDƏN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN - 2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Qabil Nadir oğlu Manafov**
İqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Asif İsmayıl oğlu Şirəliyev**
İqtisad üzrə elmlər doktoru, professor

**Flora Qəməndər qızı Ələsgərova**
İqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat :** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "İstehsalın iqtisadi səmərəliliyinin artırılması və sahibkarlığın inkişaf problemləri" şöbəsi

Müdafiə 19 dekabr 2015-ci il tarixdə saat __ -da AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya işi ilə AMEA Naxçıvan Bölməsinin elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" noyabr 2015-ci il tarixdə göndərilmişdir.

**B/D.01.211 Dissertasiya**
**Şurasının elmi katibi:** **dosent E.A.Şıxəliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** İqtisadi inkişafın hazırkı mərhələsində sahibkarlığın rolunun yüksəlməsi meylliliyi və onun stimullaşdırılmasının təkmilləşdirilməsi zəruriliyi tədqiqat mövzusunun aktuallığını və əhəmiyyətini müəyyən edir.

Son illərdə Azərbaycanda azad rəqabətə əsaslanan sahibkarlığın formalaşması və inkişafında, onun stimullaşdırılması sahəsində bir sıra qanunvericilik, təşkilati-iqtisadi xarakterli xeyli işlər görülmüşdür. Sahibkarlığın formalaşdırılması və stimullaşdırılması məqsədilə mülkiyyət, sahibkarlıq, antiinhisar fəaliyyəti, haqsız rəqabət, səhmdar cəmiyyətləri və müəssisələr haqqında qanunlar qəbul edilmiş, müxtəlif sahələri əhatə edən çoxsaylı dövlət proqramları hazırlanmış, bir sıra zəruri təşkilati mexanizmlər yaradılmış, sahibkarlığın təşkili və yönəldilməsi üçün mühüm institutsional strukturlar formalaşdırılmışdır. Lakin hamıya aydındır ki, qlobal maliyyə böhranının müşahidə edildiyi hazırkı şəraitdə ölkəmizdə sahibkarlığın inkişafına dəstək verilməsi üçün sahibkarlıq fəaliyyətində stimullaşdırıcı amillərdən istifadənin rolunun daha da artırılmasına, bu sahədə mövcud olan nəzəri və praktiki problemlərin tədqiq edilərək aradan qaldırılmasına böyük ehtiyac vardır. Hesab edirik ki, tədqiq olunan məsələ üzrə mövcud olan qeyri-qənaətbəxş vəziyyətin, problem və çətinliklərin ən başlıca səbəbi sahibkarlıq fəaliyyətində stimullaşdırıcı amillərdən istifadə üzrə nəzəri və praktiki biliklərin, sahibkarlığa dövlət köməyinin iqtisadi mexanizmlərinin, forma və istiqamətlərinin iqtisadiyyatımızın xüsusiyyətləri baxımından kifayət qədər və axıradək öyrənilməməsidir. Ona görə də respublikanın mövcud iqtisadi, sosial, texnoloji və intellektual potensialından istifadə etməklə sahibkarlığın stimullaşdırılması üçün, hər şeydən əvvəl, bu sahədə meydana çıxan nəzəri-metodoloji problemlərin, müxtəlif təlim, fikir və mülahizələrin, eləcə də beynəlxalq təcrübənin tədqiq edilərək ümumiləşdirilməsi, sahibkarlığın dəstəklənməsi üzrə səmərəli vahid dövlət siyasətinin formalaşdırılması üçün əməli yolların axtarılıb tapılması tələb olunur. Məhz sahibkarlığın stimullaşdırılması üzrə nəzəri və praktiki problemlərin tədqiqinin aktuallığından, mövcud iqtisadi sistemin formalaşması və inkişafında onun rolu və əhəmiyyətindən çıxış edərək, habelə Azərbaycanda sahibkarlıq fəaliyyətində stimullaşdırıcı amillərdən optimal istifadə formaları və istiqamətlərinin tapılaraq elmi cəhətdən əsaslandırılmasına böyük ehtiyacı nəzərə alaraq onun tədqiqat işinin mövzusu kimi seçilməsi məqsədəuyğun sayılmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycanda sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı ilə bağlı bir çox məsələlərin

öyrənilməsinə respublikamızın tanınmış iqtisadçı alimləri öz tədqiqatlarında geniş yer ayırmışlar. Belə ki, Z.Ə.Səmədzadə, Q.N.Manafov, A.M.Məhərrəmov, Ə.X.Nuriyev, A.B.Abbasov, T.H.Hüseynov, İ.H.İbrahimov, Ə.Q.Əlirzayev, A.A.Rüstəmov, P.Q.Rzayev, İ.Z.Seyfullayev və başqaları sahibkarlığın elmi problemlərinə, onun bazar iqtisadiyyatında formalaşması və inkişafı istiqamətlərinə dair dərin nəzəri və praktiki əhəmiyyəti olan tədqiqat işləri yerinə yetirmişlər.

Sahibkarlığın mahiyyəti və iqtisadi məzmunu, təşkilati-iqtisadi formaları haqqında dünya iqtisad elminin klassik və müasir təmsilçiləri olan A.Smit, A.Marşall, J.B.Sey, Y.Şumpeter, C.Keyns, F.Xayek, M.Fridman, Y.Kornai, F.Kotler, E.Çemberlin, E.Dolan, M.X. Meskon, L.Abalkin, A.Livşits, V.Radayev, A.Busıqin, V.Korolyov, V.Savçenko və digərləri böyük nəzəri və praktiki əhəmiyyətə malik olan tədqiqat işləri aparmış, dərin elmi fikirlər söyləmişlər.

Respublikamızın iqtisadçı alimlərinin yuxarıda qeyd olunan problemlərlə bağlı apardıqları tədqiqat işlərinin əhəmiyyətini yüksək qiymətləndirərək qeyd etmək lazımdır ki, indiyədək aparılan tədqiqatlar əsasən sahibkarlığın ayrıca götürülmüş bu və ya digər problemlərinə, forma və istiqamətlərinə həsr olunmuşdur. Lakin sahibkarlıq fəaliyyətində stimullaşdırıcı amillərdən istifadənin təkmilləşdirilməsi məsələlərinin sistem şəklində öyrənilməsi, respublikanın sosial-iqtisadi inkişafının hazırkı mərhələsində onun rolu və əhəmiyyəti vahid bir problem kimi xüsusi tədqiqat obyekti kimi araşdırılmamışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq dissertasiya işi sahibkarlıq fəaliyyətində stimullaşdırıcı amillərdən istifadənin təkmilləşdirilməsi problemlərinin kompleks halda tədqiqinə həsr olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının nəzəri aspektlərini araşdıraraq və sahibkarlıq sferasına stimullaşdırıcı amillərin təsirini qiymətləndirərək sahibkarlıq fəaliyyətində stimullaşdırıcı amillərdən istifadənin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış nəzəri-metodoloji müddəaların və praktiki tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- milli iqtisadiyyatın inkişafında sahibkarlıq fəaliyyətinin rolunun və yerinin müəyyən edilməsi;
- sahibkarlıq haqqında nəzəriyyələrin konseptual əsaslarının və onun stimullaşdırılması üzrə dünya təcrübəsinin birgə öyrənərək müvafiq müddəaların əldə olunması;

- sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının forma və istiqamətlərinin dəqiqləşdirilməsi;

- vergitutma və qiymət amilləri ilə sahibkarlıq fəaliyyəti arasında qarşılıqlı əlaqəni təhlil etməklə onların rolu və yerinin müəyyən edilməsi;

-dövlətin sahibkarlıq fəaliyyətinin maliyyə-kredit stimullaşdırılması sahəsində həyata keçirdiyi mövcud siyasətin kompleks təhlili və qiymətləndirilməsi;

- sahibkarlığın stimullaşdırılmasının regional idarəetmə və iqtisadi problemlərinin həll edilməsi sahəsində dövlət siyasətinin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanması;

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti kimi sahibkarlıq fəaliyyəti və onun Azərbaycanda stimullaşdırılması məsələləri seçilmişdir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini sahibkarlıq fəaliyyətinin stimullaşdırılması sahəsində dövlətlə sahibkarlıq subyektləri arasında münasibətlər və Azərbaycanın bazar iqtisadi sistemi şəraitində onların təkmilləşdirilməsi mexanizmi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** xarici və Azərbaycan iqtisadi ədəbiyyatında alimlərin sahibkarlıq fəaliyyətinin stimullaşdırılması problemləri ilə bağlı mövcud olan nəzəri-praktiki elmi əsərləri, ölkəmizin qanunvericilik və idarəetmə orqanlarının qərarları və digər hüquqi-normativ sənədləri təşkil edir.

Tədqiqat zamanı sistemli təhlil, məntiqi ümumiləşdirmə və qruplaşdırma, müqayisə, dinamika, statistika və şəxsi müşahidə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** sahibkarlıq fəaliyyətinin, o cümlədən burada stimullaşdırıcı amillərdən istifadənin təkmilləşdirilməsinə dair ədəbiyyat, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Dövlət Statistika Komitəsinin, Gömrük Komitəsinin, İqtisadiyyat və Sənaye Nazirliyinin, Maliyyə və Vergi nazirliklərinin məlumatları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- milli iqtisadiyyatın inkişafının strateji resursu kimi sahibkarlığın formalaşması və inkişafına dair çoxsaylı elmi fikirlər məntiqi-tarixi ardıcıllıqla sistemləşdirilməklə əsas elmi istiqamətlər üzrə qruplaşdırılmışdır;

- inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsində sahibkarlığa dövlət köməyinin iqtisadi mexanizmləri öyrənilməklə, onların Azərbaycanda səmərəli tətbiqinə dair müvafiq təklif və tövsiyələr verilmişdir;

- sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının forma və istiqamətləri tədqiq edilərək, Azərbaycanda sahibkarlığın stimullaşdırılması proseslərinin idarə olunması modeli təklif olunmuşdur;

- Azərbaycanda mövcud sahibkarlıq mühitinin formalaşması xüsusiyyətləri aşkara çıxarılaraq qiymətləndirilmişdir;

- qlobal maliyyə böhranı şəraitində sahibkarlıq subyektlərinin stimullaşdırılmasında dövlətin investisiya siyasətinin təkmilləşdirilməsi yolları açıqlanmışdır;

- sahibkarlıq subyektlərinin fəaliyyətinə vergi və qiymət mexanizmlərinin stimullaşdırıcı təsir istiqamətləri əsaslandırılmışdır;

- sahibkarlığın stimullaşdırılması sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinə dair təklif və tövsiyələr verilmişdir;

- Azərbaycanda regional sahibkarlıq üzrə klaster daxilində ixtisaslaşmış sahələrin inkişaf modeli işlənib hazırlanmışdır;

- İnnovasiya sahibkarlığının stimullaşdırılması mexanizmlərinin sistem modeli təklif edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətində stimullaşdırıcı amillərdən optimal istifadə yollarının müəyyənələşdirilməsi və əsaslandırılması zamanı dissertasiya işinin metodları bir nümunə kimi istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiya işində müəllifin gəldiyi nəticələr 12 elmi məqalə və 4 tezisdə dərc edilmişdir. Bundan əlavə, işin əsas müddəaları 4 keçirilmiş konfrans və seminarlarda məruzə edilmiş və müzakirə olunmuşdur. Tədqiqat nəticəsində irəli sürülən əməli təkliflər respublikanın İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən ölkədə sahibkarlığın inkişafının daha da sürətləndirilməsi prosesində istifadə üçün qəbul edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O, kompüter yazısı ilə 173 səhifə həcmində olub, müxtəlif formada 3 sxemi və 22 cədvəli özündə birləşdirir. Ədəbiyyat siyahısında tədqiqat prosesində istifadə olunmuş 132 ədəbiyyatın adı göstərilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi müəyyən edilmiş, tədqiqatın məqsədi və vəzifələri formalaşdırılmış, obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası verilmiş, elmi yeniliyi və təcrübəvi əhəmiyyəti, tədqiqatın nəticələrinin aprobasiya və tətbiqi şərh edilmişdir.

**"Sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının nəzəri əsasları"** adlı birinci fəsildə sahibkarlıq fəaliyyəti milli iqtisadiyyatın inkişafının strateji resursu kimi araşdırılmış, xarici və Azərbaycan təcrübəsində sahibkarlığa dövlət köməyinin iqtisadi mexanizmləri tədqiq edilmiş, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının forma və istiqamətləri müəyyən edilmişdir. Sahibkarlıq fəaliyyətinin məzmunu son dərəcə zəngin və çoxcəhətli olub iqtisadi, hüquqi, sosial, psixoloji məsələlərlə bağlıdır. İqtisadi ədəbiyyatda sahibklarlığın mahiyyəti haqqında verilən müasir baxışlara görə, o, insanlara lazım olan məhsullar istehsalıdır, həm iş görə bilmək sistemidir, həm mövcud iqtisadi sistemin yeni texnika və texnologiya əsasında tərəqqisinin ana xəttidir, həm insanların öz arzu və ehtiyaclarının ödənilməsinə yönəlmiş istehsal və xidmətlər sistemidir, həm yeni düşünmə tərzi, əhəmiyyətli bir işə başlamaqdır, həm cəsarətli, həlledici fəaliyyətdir. Fəaliyyətin bu növü istehsal vasitələri üzərində mülkiyyət forması ilə, hər şeydən əvvəl isə, xüsusi mülkiyyətlə sıx əlaqəli olduğundan, tarixi bir kateqoriyadır. Məhz bu baxımdan tarixən xüsusi mülkiyyət sahibkarlıq fəaliyyətinin iqtisadi əsası, sahibkarlıq fəaliyyəti isə müəyyən mənada xüsusi mülkiyyətin reallaşdırılma forması kimi çıxış etmişdir.

Xarici və yerli iqtisadçıların fikirlərini ümumiləşdirməklə belə qənaətə gəlinmişdir ki, sahibkarlıq fəaliyyəti milli iqtisadiyyatın inkişafının strateji resursu sayılır və bu fəaliyyət dairəsinə aşağıdakı funksiyalar aid edilməlidir: iqtisadi resurslar(əmək, kapital, torpaq resursları və sahibkarlıq qabiliyyəti); istehsal fəaliyyəti; innovasiya fəaliyyəti; marketinq fəaliyyəti; idarəetmə fəaliyyəti; maliyyə və uçot fəaliyyəti; maddi-texniki təminat; kadr hazırlığı; sahibkarlıq riski.

Sahibkarlıq fəaliyyəti yalnız istehsalın hərəkətverici qüvvəsi deyildir, həm də büdcəyə ödəmələrin başlıca alimi və dövlət maliyyəsini möhkəmləndirməyin mühüm mənbəyini təşkil edir. Ona görə də dövlət işgüzar təşəbbüskarlığı fəal şəkildə stimullaşdırmalı, sahibkarlıqla cəmiyyət və dövlət arasındakı əlaqə və münasibətləri möhkəmləndirməyə çalışmalıdır. Sahibkarlıq fəaliyyətini tənzimləmək məqsədilə stimullaşdırıcı, nəzarətedici və məhdudlaşdırıcı tədbirlər üzvi şəkildə

əlaqələndirilməlidir. Bununla əlaqədar olaraq kiçik və orta sahibkarlığın müdafiə olunmasında, onların normativ-hüquqi bazasının möhkəmləndirilməsində, investisiya fəaliyyətinin stimullaşdırılmasında, maliyyə cəhətdən müdafiə olunmasında dövlətin mühüm tənzimləmə rolu vardır.

Azərbaycanda milli sahibkarlığa dövlət köməyi üzrə tədbirlər sisteminin işlənib hazırlanması və reallaşdırılması zamanı beynəlxalq təcrübəyə istinad olunmalıdır. Tədqiqatlar göstərir ki, bu sahədə bütün ölkələr üçün eyni olan bir sıra ümumi cəhətlər mövcuddur. Həmin ümumi cəhətlər, ilk növbədə, ondan ibarətdir ki, hər bir dövlət məqsədli kompleks proqramlar hazırlayır və onların resurs təminatını yaradır. Digər tərəfdən, bu məqsədlə qanunvericilik, vergi-gömrük, kredit, dövlət sifarişi, subsidiyalar, mükafatlar, zəmanət, informasiya, marketinq təminatı, maliyyə bazarının və müflisləşmənin tənzimlənməsi və s. kimi iqtisadi üsul və vasitələrdən istifadə olunması da bütün dövlətlər üçün ümumi xarakter daşıyır. Onu da qeyd edək ki, bazar münasibətləri təşəkkül tapdıqca, iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və istiqamətləri də dəyişir, iqtisadi tənzimləmə vasitələrinin rolu daha da artır.

Sahibkarlığa dövlət dəstəyinin mühüm istiqamətlərindən biri də sahibkarlığın güzəştli kreditlərlə təmin edilməsidir. Bununla əlaqədar, sahibkarlara dövlət maliyyə dəstəyinin ildən-ilə artırılması artıq öz real bəhrəsini verməkdədir. Bir qayda olaraq,unvanlı vergi guzəştlərinin tətbiqi digər tənzimləmə alətləri ilə əlaqəli və sistemli xarakter daşıdıqda səmərəli olur.[1]

Hazırda sahibkarlığın stimullaşdırılmasının maliyyə istiqamətləri ilə yanaşı qeyri-maliyyə formaları da geniş yayılmışdır. Bu baxımdan sahibkarlığın stimullaşdırılmasının daha geniş yayılmağa başlamış bir forması işgüzar strukturların əlverişli fəaliyyətinə şərait yaradan xüsusi ərazilərin: sərbəst iqtisadi zonaların, kiçik sənaye mərkəzlərinin, azad ticarət zonalarının və s. yaradılmasıdır.

Bütün yuxarıda qeyd edilənləri nəzərə alaraq, Azərbaycanda sahibkarlığın stimullaşdırılması proseslərinin idarə olunması modelini təklif edirik (Şəkil 1).

---

[1] Məmmədov Ə.C., Seyfullayev İ.Z. Vergi və investisiya. Bakı: Caşıoğlu, 2013, s. 127.




**Şəkil 1.** Azərbaycanda sahibkarlığın stimullaşdırılması proseslərinin idarə olunması modeli.

Onu da qeyd edək ki, sahibkarlığın stimullaşdırılmasının qeyri-maliyyə istiqamətinin maliyyə istiqamətindən başlıca fərqi onun müvəqqəti deyil, daimi xarakter daşımasıdır. Bu zaman hər iki istiqamət üçün səciyyəvi cəhət onların bütün sahibkarlıq formalarına deyil, əsasən, kiçik sahibkarlıq strukturlarına yönəldilməsidir. Kiçik müəssisələr mürəkkəb bazar konyunkturu və risk şəraitində fəaliyyət göstərdiyinə görə, onların ömür müddəti çox vaxt dövlət köməyinin səviyyəsindən və formalarından asılı olur. Nəticə etibarilə, kiçik sahibkarlara dövlət köməyi onların fəaliyyət şəraiti ilə orta və iri müəssisələrin fəaliyyət mühitini müəyyən mənada tarazlaşdırır. Bununla da onların hər biri üçün bərabər fəaliyyət şəraiti təmin olunur. Həmin müəssisələrin fəaliyyətinin ilk vaxtlarında dövlətin onlara maliyyə köməkliyinin vergi, kredit və s. kimi formaları qeyri-maliyyə köməklikləri ilə paralel gedir və bəzən onları üstələyir. Müəssisənin yetkinlik səviyyəsi artdıqca, onun bazardakı mövqeləri gücləndikcə qeyri-maliyyə köməklikləri ön plana keçir.

**"Sahibkarlıq mühitinin formalaşması və sahibkarlıq sferasına stimullaşdırıcı amillərin təsirinin qiymətləndirilməsi"** adlı ikinci fəsildə Azərbaycanda sahibkarlıq mühitinin formalaşması xüsusiyyətləri araşdırılmış, sahibkarlığın stimullaşdırılmasında dövlətin investisiya siyasətinin mövcud vəziyyəti və inkişaf meylləri qiymətləndirilmiş, vergi və qiymət amillərinin  sahibkarlıq fəaliyyətinə təsiri təhlil olunmuşdur.

Ölkədə sahibkarlığın inkişafı dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biri sayılır. Təhlil edilən dövr ərzində bu sahədə dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, dövlət tənzimlənməsi sisteminin, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın genişləndirilməsi, sahibkarlığın stimullaşdırılması mexanizmlərinin daha da yaxşılaşdırılması kimi mühüm tədbirlər həyata keçirilmişdir. Aparılmış islahatlar nəticəsində özəl sektorun payı ümumi daxili məhsulun həcmində 2003-cü ildəki 74 faizdən 2014-cü ildə 81,9 faizə çatmış, məşğulluqda 74,4 faizə, vergi daxilolmalarında 70,4 faizə bərabər olmuşdur. Kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri-dövlət bölməsinin payı 78,8-99,8 faiz civarında dəyişmişdir.

Son illər ərzində ölkədə hüquqi şəxslərin sayı artaraq 2014-cü ildə 8553 vahid yeni sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs qeydiyyata alınmış, onların sayı artaraq ümumilikdə 94563 vahidə çatmışdır.

2014-cü il ərzində 64863 vahid fərdi sahibkarlıq formasında fəaliyyət göstərən fiziki şəxs qeydiyyatdan keçmişdir. Ölkədə fəaliyyət göstərən fiziki şəxslərin ümumi sayı dinamik şəkildə artaraq 2015-ci ilin 1 yanvar

tarixinə 519860 vahid olmuşdur. Sahibkarlıq subyektlərinin bölgüsünə gəldikdə isə onların 15,4 faizini hüquqi şəxslər, 84,6 faizini isə fiziki şəxslər təşkil etmişdir.

Azərbaycanda sahibkarlara dövlət dəstəyi tədbirlərinin davamı olaraq, sahibkarlıq subyektləri tərəfindən idxal-ixrac əməliyyatları zamanı icra edilən prosedurların daha da sadələşdirilməsinə xidmət edən "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 may 2010-cu il tarixli Fərmanı xüsusi əhəmiyyət kəsb etmişdir. Fərmanla bu istiqamətdə özəl sektorda fəaliyyət göstərən sahibkarlar tərəfindən bağlanmış müqavilələrin İqtisadiyyat və Sənaye Nazirliyində ekspertizadan və qeydiyyatdan keçirilməsi proseduru ləğv edilmiş, ixrac zamanı mal satışında onların haqlarının qabaqcadan ödənilməsi, yaxud geri çağırılmayan akkreditiv olması yolu ilə və ya birinci dərəcəli bankların zəmanəti əsasında həyata keçirilməsi məhdudiyyəti aradan qaldırılmış, idxal-ixrac əməliyyatları aparılan zaman tələb olunan sənədlərin bəziləri siyahıdan çıxarılmışdır ki, bu da ümumilikdə sahibkarlar tərəfindən sərf olunan əlavə vaxt və məsrəf itkisinin qarşısının alınmasına şərait yaratmışdır. Belə ki, idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi zamanı riayət edilən prosedurlardan 1-i və buna sərf olunan 3 gün vaxt azalmışdır.

Kiçik sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsünə nəzər yetirsək görərik ki, bu tip müəssisələrin 70,5 faizi ticarətin, nəqliyyat vasitələrinin təmirinin payına, 10,7 faizi nəqliyyat və anbar təsərrüfatının, 3,6 faizi turizmin və ictimai iaşənin payına düşür. Lakin kiçik və orta sahibkarlıqla yanaşı iri sahibkarlığın inkişaf etdirilməsi də daim dövlətin diqqət mərkəzində olmalıdır. Respublikanın iqtisadi müstəqilliyini təmin etmək məqsədilə ağır və emal sənayelərində özəl sektorun fəaliyyəti dəstəklənməli və bu sahədə xüsusi dövlət proqramları həyata keçirilməlidir. Çünki ağır və emal sənayesində böyük dövriyyəyə malik olan müəssisələrin olmaması dövlətin iqtisadi gücünü zəiflədir.[2]

Azərbaycanda fəaliyyət göstərən xarici və birgə müəssisələrin inkişaf dinamikasını nəzərdən keçirsək görərik ki, son illərdə bu tip müəssisələrin sayı xeyli artmış, fəaliyyət dairəsi isə xeyli genişlənmişdir. Belə ki, 2005-ci illə müqayisədə 2013-cü ildə həmin müəssisələrin sayı 43,2 faiz artaraq 1140-a çatmışdır. Xarici və birgə müəssisələrdə işləyənlərin sayı 45,5 faiz artaraq 85 minə, onlarda istehsal edilən məhsul, iş və xidmətlərin həcmi 4,2

[2] Məhərrəmov A.M. Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı: Nurlar, 2009, s. 203

dəfə artaraq 30,1 mlrd. manata yüksəlmiş, işləyənlərin orta aylıq əmək haqqı isə 2 dəfədən çox artaraq 1300 manatdan çox olmuşdur (Cədvəl 1).

**Cədvəl 1**

**Azərbaycanda xarici və birgə müəssisələrin inkişaf dinamikası və fəaliyyəti**

| İllər | Fəaliyyət göstərən müəssisələrin sayı | Onlarda işləyənlərin sayı | Məhsulun, işin və xidmətlərin həcmi, mln. manatla | Orta aylıq əmək haqqı, manat |
|---|---|---|---|---|
| 2005 | 796 | 58413 | 7081,4 | 627,7 |
| 2006 | 863 | 63105 | 12103,1 | 746,8 |
| 2007 | 1163 | 62203 | 17215,4 | 950,0 |
| 2008 | 1174 | 65198 | 25952,6 | 1012,0 |
| 2009 | 1181 | 59402 | 19637,6 | 941,7 |
| 2010 | 1091 | 55936 | 24011,9 | 1008,0 |
| 2011 | 899 | 63918 | 29651,2 | 1117,2 |
| 2012 | 1083 | 76651 | 29439,5 | 1241,0 |
| 2013 | 1140 | 84985 | 30065,5 | 1304,0 |
| 2013-cü il 2005-ci ilə nis. faizlə | 143,2 | 145,5 | 424,6 | 207,7 |

**Mənbə:** Azərbaycanın Statistik Göstəriciləri. Statistik məcmuə. Bakı, 2014, s.124-125.

İslahatların məntiqi davamı kimi Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2015-ci il tarixli sərəncamı ilə 2015-ci il kənd təsərrüfatı ili elan edilmişdir. Sərəncamın əsas məqsədi kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etməkdir. Bu məqsədlə kənd təsərrüfatı məhsulları istehsalının dəstəklənməsi, kənd təsərrüfatı sahəsində potensialın gücləndirilməsi, elmi təminatın və kadr hazırlığının yaxşılaşdırılması, informasiya texnologiyaları üzrə infrastrukturun gücləndirilməsi, elektron kənd təsərrüfatı sisteminin yaradılması, təbliğat və təşviqat işlərinin təşkilini özündə ehtiva edən tədbirlər planı işlənib hazırlanmış və əlaqələndirici orqan kimi Kənd Təsərrüfatı Nazirliyi müəyyən edilmişdir.

Ölkə prezidenti İ. Əliyevin 15 aprel 2015-ci il "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına əsasən kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində və çoxillik əkmələrin aparılmasında

istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımın həcminin 25 faiz artırılması, eləcə də kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə verilən yardımın, habelə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən mineral gübrələrin güzəştlə satılmasına görə verilən subsidiyanın təkrar (aralıq) əkinlər aparan fiziki və hüquqi şəxslərə də ödənilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda, baş verən uzunmüddətli quraqlıqların mənfi təsirinin aradan qaldırılması, su təminatının yaxşılaşdırılması, habelə bu sahəyə sahibkarların marağının artırılması və investisiya qoyuluşunun stimullaşdırılması məqsədi ilə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən fiziki və hüquqi şəxslərə lizinqə verilən və ya lizinq yolu ilə satılan suvarma sistemləri dəstinə və avadanlığına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt müəyyən edilmişdir.

Azərbaycanda sahibkarlığın inkişafı qarşısında duran əsas problemlərdən biri işgüzar fəaliyyətin zəruri maliyyə resursları ilə təmin edilməsi ilə əlaqədardır. Bu problemin həlli xeyli dərəcədə dövlətin həyata keçirdiyi investisiya siyasətinin miqyasından və səmərəsindən asılıdır. Tədqiqatlar göstərir ki, ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların tərkibində bu və ya digər səviyyədə sahibkarlıq fəaliyyətinə aid edilə biləcək bölmə, yəni birgə müəssisələr və xarici firmalar üzrə investisiyaların həcmi 2005-ci illə müqayisədə 2014-cü ildə 5,2 dəfə artaraq 230,5 mln. manatdan 1200,0 mln. manata yüksəlsə də, onun xüsusi çəkisi təhlil olunan dövrdə təxminən 5-11 faiz civarında olmuşdur ki, bunu da qənaətbəxş saymaq olmaz.

İnvestisiya mənbələri içərisində əhalinin şəxsi vəsaitlərinin xüsusi çəkisi də çox aşağıdır. Belə ki, 2005-ci illə müqayisədə bu göstərici 2014-cü ildə 12,5% artaraq 566,9 mln. manat təşkil etsə də, bu əsas kapitala yönəldilmiş investisiyanın ümumi həcminin 3,2%-nə bərabərdir.

Ölkədə sahibkarlığın stimullaşdırılmasının mühüm istiqamətlərindən biri özəl investisiya qoyuluşlarının dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsidir. Son illərdə ölkədə bu məqsədlə bir sıra inkişaf institutları yaradılmışdır. Bunlardan biri Sahibkarlığa Kömək Milli Fondudur. Fondunun hesabat materiallarının təhlili göstərir ki, fond tərəfindən dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilmiş investisiya layihələrinin sayı 2006-2010-cu illərdə 6981ədəd idisə, 2011-2013-cü illərdə bu göstərici 25,8 faiz artaraq 8785-ə çatmışdır. Həmin layihələrin müvafiq olaraq 82,5 və 94,5 faizi aqrar sektorun payına düşmüşdür.

Verilmiş güzəştli kreditlərin məbləğinin iqtisadiyyatın sahələri üzrə bölgüsü göstərir ki, 2011-2013-cü illərdə 2006-2010-cu illərlə müqayisədə 1,5 dəfə artaraq 786,2 mln. manat olmuşdur ki, bunun da 62,7 faizi aqrar sektorun payına düşmüşdür (Cədvəl 2).

**Cədvəl 2**

**Dövlət tərəfindən verilmiş güzəştli kreditlərin iqtisadiyyatın sahələri üzrə bölgüsü**

| | 2006-2010 | | 2011-2013 | | 2011-2013-cü illərin2006-2010-cu illərə nis., % |
|---|---|---|---|---|---|
| | cəmi, min manat | yekuna görə, % | cəmi, min manat | yekuna görə, % | |
| Cəmi | 513168,1 | 100,0 | 786212,5 | 100,0 | 153,2 |
| O cümlədən aqrar sektor | 64952,5 | 12,7 | 492980,5 | 62,7 | 7,6 dəfə |
| sənaye və digər sahələr | 448215,8 | 87,3 | 293232,0 | 37,3 | 65,4 |

**Mənbə:** Cədvəl müəllif tərəfindən Sahibkarlığa Kömək Milli Fondunun məlumatları əsasında tərtib olunmuşdur.

Məlum olduğu kimi, Azərbaycanda strateji olmayan məhsullar istehsal edən fermer təsərrüfatlarının hər hektarına 40 manat, strateji məhsul (məsələn, buğda və çəltik) istehsal edən fermer təsərrüfatının hər hektarına isə 80 manat ödənilir. Fikrimizcə, aqrar sektora yönəldilən subsidiyaların verilməsi meyarlarının dəyişdirilməsinə ehtiyac var. Belə ki, tətbiq edilən bu mexanizm fermerlərin daha çox məhsul istehsalını stimullaşdırmır. Çünki burada əkin sahəsindəki hər hektara görə ödənişlər olur. Yəni fermer, hansı həcmdə məhsul istehsal etməsindən asılı olmayaraq, bütün hallarda həmin subsidiyanı alır. Amma bu belə olmamalıdır. Bu üsul daha çox zəhmət tələb edən və ya daha çox məhsul verən ərzaq məhsullarının yetişdirilməsində əlavə subsidiyaların alınmasına imkan yaratmır. Ona görə də subsidiyaların məbləğinin istehsal olunan məhsulun həcminə uyğunlaşdırılmasını məqsədəuyğun sayırıq. Bu halda, daha çox məhsul istehsal edən fermer dövlətdən daha çox, az məhsul istehsal edən fermer isə nisbətən az məbləğdə subsidiya alacaqdır. Bu isə öz növbəsində baş verə biləcək müxtəlif möhtəkirlik hallarının qarşısının alınmasına və dövlət vəsaitinin daha effektiv və itkisiz istifadə edilməsinə gətirib çıxaracaqdır.

Digər tərəfdən, indiki halda əkilən strateji məhsullar yalnız taxıl və çəltik yetişdirilməsindən ibarət olmamalıdır. Fikrimizcə, bu cür halın digər strateji məhsullara, o cümlədən də Azərbaycanda istehsalı üçün geniş imkanlar olan, lakin istehsalı əvvəlki dovrlərlə müqaisədə kəskin azalmış

bəzi məhsullara, məsələn, pambıq, tütün və ərzaq təhlükəsizliyi ilə birbaşa bağlı olan digər məhsullara da aid edilməsinə ehtiyac var.

Beləliklə, Azərbaycanda sahibkarlığın inkişafı üçün ilk növbədə kiçik və orta sahibkarlığın dövlət tənzimlənməsinin maliyyə-kredit mexanizmini təkmilləşdirmək, biznesin institusional artım amillərinin inkişafına kömək etmək, eləcə də innovasiya sferasında kiçik və orta müəssisələrin yaranmasına və inkişafına yardım göstərmək zəruridir. Sahibkarlıqda maliyyə-kredit stimullaşdırılmasını təkmilləşdirmək üçün aşağıdakıların təmin edilməsini məqsədəuyğun sayırıq:

-iqtisadiyyatın daxili maliyyə mənbələrində büdcə vəsaitinin payını sabit saxlamaqla ondan effektiv istifadəyə nail olmaq;

- əsas kapitala investisiyaların strukturunda bank kreditlərinin xüsusi çəkisinin artımına nail olmaq və kredit faizləri dərəcəsinin aşağı salınması üçün bütün tədbirləri görmək;

- ölkəyə xarici investisiyaların qeyri-neft sektoruna cəlb olunması məqsədilə normativ-hüquqi aktlarda zəruri dəyişikliklər aparmaq;

- kredit ittifaqlarının fəaliyyətinin daha da genişlənməsi üçün ölkə ərazisində zəruri işgüzarlıq mühiti yaratmaq;

-Sahibkarlığa Kömək Milli Fondunun və digər maliyyə qurumlarının fəaliyyətində şəffaflığı təmin etmək və onların kreditləşmə mexanizmi prosedurlarını daha da sadələşdirmək məqsədilə tədbirlər işləyib hazırlamaq və s.

Hesab edirik ki, vergi sistemi sahibkarlığın formalaşması və inkişafına fəal xidmət etməli, milli iqtisadiyyatın formalaşması xüsusiyyətlərinə uyğunlaşdırılmalı, bütövlükdə ölkədə və onun ayrı-ayrı regionlarında mövcud olan iqtisadi və sosial şərait nəzərə alınmalıdır. Başqa sözlə desək, respublikadakı mövcud vergi sisteminin sahibkarlıq üçün səmərəsi, həvəsləndirici, qoruyucu, istiqamətləndirici rolu və sosial funksiyası daha da yüksəldilməlidir. Sahibkarlıq aktivliyinə nail olunması məqsədilə müasir şəraitə uyğun elə bir vergi sistemi formalaşdırmaq lazımdır ki, bu zaman qarşıya qoyulmuş hədəflər biznes üçün sadə və əlverişli, dövlət üçün rəqabətli və səmərəli, vergi xidməti üçün inzibatçılıq baxımından asan və idarə edilən olmalıdır.[3]

Bununla yanaşı, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə dövlət tərəfindən kiçik sahibkarlığa kömək edən bir çox iqtisadi subyektlər üçün, o cümlədən kiçik sahibkarlığa kömək fondları, investisiya və lizinq şirkətləri, kredit və sığorta təşkilatları, reklam və informasiya müəssisələri və s. üçün

---

[3] Rzayev P.Q. Vergi stimullaşdırılması metodları sahibkarlıq aktivliyinin yüksəldilməsi amili kimi // Azərbaycanin vergi xəbərləri. 2014, 6 (120), s. 78.

də bir sıra vergi güzəştləri həyata keçirilir. Hesab edirik ki, dünya ölkələrinin vergi siyasəti sahəsində bu təcrübəsi də diqqətdə saxlanılmalı və vergi siyasətini aparmaq üçün başlıca olaraq, vergilərin fiskal və tənzimləmə funksiyaları arasında optimal nisbətə nail olmaq lazımdır.

Hər bir ölкədə formalaşan və müəyyənləşdirilən qiymətlər sistemi кompleкs amillərin – strateji və taкtiкi amillərin qarşılıqlı nəticəsi olmalı və iqtisadi mənafeləri düzgün uzlaşdırmaqla geniş stimullaşdırıcı xaraкterə maliк olmalıdır. Yalnız кompleкs amillər əsasında formalaşan qiymətlər reallığı düzgün əкs etdirir və iqtisadi inкişafa müsbət təsir göstərir. Göründüyü кimi ölкədə iqtisadi inкişaf və onun təzahür formalarından biri olan azad sahibкarlıq əhəmiyyətli dərəcədə ölкədə formalaşan qiymət mexanizmindən asılıdır. Aparılan qiymət siyasəti və bu əsasda formalaşan qiymət mexanizmi digər sabit şərtlər daxilində iqtisadi-sosial inкişafı sürətləndirə də bilər, ləngidə də bilər. Ona görə də qiymət siyasəti xüsusi diqqətdə olmalı və кonкret vəziyyətdən asılı olaraq daim təкmilləşməlidir.

**“Sahibkalıq fəaliyyətində stimullaşdırıcı mexanizmlərdən istifadənin təkmilləşdirilməsi problemləri”** adlı üçüncü fəsildə sahibkarlığın stimullaşdırılması üzrə dövlət siyasətinin əsas istiqamətləri verilmiş, sahibkarlığın stimullaşdırılmasının regional idarəetmə problemləri araşdırılmış, innovasiya sahibkarlığının stimullaşdırılmasının iqtisadi mexanizmləri müəyyənləşdirilmişdir.

Kiçik və orta sahibkarların, xüsusən regionlarda fəaliyyət göstərən sahibkarların əsas çətinliklərindən biri geniş bazarlara çıxmaq imkanlarının məhdud olmasıdır. Ona görə də təklif edirik ki, dövlət dəstəyi ilə yalnız kiçik və orta sahibkarlarının istehsal etdiyi məhsulların satışını həyata keçirən satış-dağıtım (kommersiya) firmaları yaradılsın. Bu tipli firmaları yaradan sahibkarlara maşınların alınması üçün uzunmüddətli lizinq dəstəyi, mənfəətdən vergi güzəştləri, kredit güzəştləri, anbar tikmək ücün güzəştli şərtlərlə yer ayrılması və s. dəstək verilə bilər. Bu isə öz növbəsində istehsal və kommersiya sahibkarlığı arasındakı əlaqələri gücləndirəcək, daşınma və saxlama xərclərinə qənaət etməyə imkan yaradacaq, yeni ideyaların meydana gəlməsinə səbəb olacaq və istehsalçıların bazar informasiyaları ilə təmin olunmasına şərait yaradacaqdır.

Öldə geniş iqtisadi inişaf proqramının hazırlanması və sahibkarlığın inişafında regional xüsusiyyətlərlə yanaşı bizim firimizcə, eləcə də sahəvi xüsusiyyətlər nəzərə alınmalı və yüsə əmə tutumlu, strateji, nisbətən ağır iş şəraiti və zəhərli, istehsalı məhdud lain böyü tələbat olan sahələrdə fəaliyyət göstərən sahibkarlara dövlət güzəştləri və dəstəyi daha güclü olmalıdır. Onların mənafe və hüquqlarının qorunması və dəstələnməsi daim dövlətin xüsusi nəzarətində olmalıdır. Həm də, bilavasitə istehsalla məşğul

olan sahibarlara güzəştlər daha geniş olmalıdır. Yəni istehsal və qeyri istehsal sahələri üzrə sahibkarlıq fəaliyyəti fərqləndirilməli və istehsal yönümlü sahibкarlığa müəyyən üstünlüк verilməlidir. Bu sahədə fəaliyyət göstərən sahibkarlara istər kreditlərin verilməsində, istər vergi və rüsumların dərəcələrinin müəyyənləşdirilməsində, istər məhsulların reallaşdırılması və qiymətlərin tənzimlənməsində güclü dövlət güzəştləri olmalıdır. Hesab edirik ki, davamlı inkişafın təmin edilməsi məqsədilə sahibkarlığın inkişafı tədbirləri ölkə iqtisadiyyatının inkişafının hazırkı mərhələsində regional inkişafda qeyri bərabərliyin aradan qaldırılmasına, ölkə iqtisadiyyatının səmərəli sahə strukturunun formalaşmasına, texnoloji inkişafın sürətləndirilməsinə, ölkənin ixrac potensialının səmərəli reallaşdırılmasına, qeyri-neft sektorunun inkişafına, məşğulluğun optimal səviyyəsinin təmin edilməsinə və orta təbəqənin formalaşması prosesinin sürətləndirilməsinə yönəldilməlidir. Fikrimizcə, göstərilən öncül məqsədlərə nail olunmas üçün ilk növbədə sahibkarlığın inkişafının normativ-hüquqi bazası mütəmadi aparılmalı olan təhlil əsasında təkmilləşdirilməli, bu siyasət dövlətin təsərrüfat funksiyalarının məhdudlaşdırılması, tənzimləmənin isə səmərəliliyinin artırılmasına yönəldilməlidir. İkincisi, sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatı gücləndirilməli, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə zəruri mühit yaradılmalı, bu fəaliyyət stimullaşdırılmalı, start kapitalının formalaşması imkanları genişləndirilməlidir; Üçüncüsü, öncül sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsi genişləndirilməli, müxtəlif istiqamətdə davamlı və sistemli xidmətlər göstərən təsisatlar yaradılmalıdır. Xüsusilə də ölkənin ixrac potensialının səmərəli reallaşdırılması məqsədilə ixrac qabiliyyətli sahələr üzrə məhsul istehsalı, onun dünya bazarlarına çatdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri ilə dəstəkləyəcək İxracın və İnvestisiyaların Təşviqi Fondunun səmərəli fəaliyyəti təmin edilməlidir. Dördüncüsü, istehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya praktikasında müvəffəqiyyətlə tətbiq edilən təşkilati modelləri (sənaye şəhərcikləri, biznes-inkubatorlar və s.) yaradılmalıdır. Beşincisi, sahibkarlığın dəstəklənməsi üzrə mövcud və yaradılacaq təsisatlar arasında ümumi məqsədin reallaşdırılması baxımından səmərəli əməkdaşlıq təmin edilməlidir ki, bu da son nəticədə sahibkarlığın təşkilati təminatını sistem şəklində formalaşdırsın. Altıncısı, sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı sistemi təkmilləşdirilməli, bu proses istər kəmiyyət, istərsə də keyfiyyət parametrlərini özündə əks etdirilməlidir. Yeddincisi, biznes subyektlərinin yaradılmış biznes

mühitdən eyni dərəcədə faydalanması imkanlarını təmin edəcək rəqabət mühitinin təmini istiqamətində fəaliyyət gücləndirilməli, səmərəli antiinhisar tənzimləmə həyata keçirilməlidir. Səkkizincisi, iqtisadi tənzimləmə üsullarının tətbiqi sahəsində dövlət tərəfindən sahibkar maraqlarının cəmiyyət maraqları baxımından vahid müstəviyə gətirilməsini təmin edən tarazlı vergi, gömrük, tarif siyasəti həyata keçirilməlidir. Doqquzuncusu, sahibkarların hüquqlarının müdafiəsi mexanizmləri təkmilləşdirilməli, innovasiya potensialının reallaşması üzrə sistemli tədbirlər həyata keçirilməli, bu istiqamətin reallaşmasına ölkənin elmi, kadr potensialı cəlb edilməlidir. Onuncusu, əhalinin daha geniş sosial təbəqələrinin, o cümlədən gənclərin, qadınların, əlillərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsinə istiqamətlənmiş tədbirlər həyata keçirilməlidir.

Innovasiya sahibkarlığı işgüzar fəaliyyətin əsas formalarından biri, uzunmüddətli iqtisadi artımın mühüm amili kimi çıxış etməklə, yeni ideya və layihələrin, texnika və texnologiyanın tətbiqi ilə əlaqədardır. Bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, innovasiya sahibkarlığının təşəkkülü və inkişafı çox çətin bir proses olduğu üçün bu işdə mütləq dövlət köməyi və himayəsinə ehtiyac duyulur. Məhz bu baxımdan dövlətin həyata keçirdiyi tədbirlər sırasına qanunvericilik, təşkilati, kredit-vergi güzəştləri, kadr hazırlığına kömək və s. istiqamətlər daxildir. İnnovasiya sahibkarlığının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi prosesində təkcə mövcud xüsusiyyətləri, ayrı-ayrı innovasiya yönümlü təsərrüfat subyektləri tərəfindən, eləcə də bütövlükdə ölkənin xalq təsərrüfatı tərəfindən indiyə qədər toplanmış potensialı deyil, həm də bazar münasibətləri iştirakçılarının gələcək effektiv inkişafı üçün formalaşdırılan şəraiti nəzərə almaq lazımdır. Bazar şəraitində innovasiya sahibkarlığının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi prosesində zəruri olan cəhət təkcə qəbul edilən idarəetmə qərarlarının optimallaşdırılması deyil, həm də bazar münasibətlərinin bütün iştirakçılarının fəaliyyətinin hüquqi təminatıdır.

Bütövlükdə mikro səviyyədə ölkə və regional innovasiya strategiyalarının reallaşdırılmasını təmin edən və innovasiya sahibkarlığının inkişafını fəallaşdıran innovasiya mexanizmləri sistemini aşağıdakı 5 qrupda təsəvvür etmək olar: işlənmə və tətbiq mexanizmləri; təşkilati mexanizmlər, maliyyələşdirmə mexanizmləri; texnoloji transfert mexanizmləri; intellektual mülkiyyətin müdafiəsi mexanizmləri (Şəkil 2). Həmin mexanizmlər müəyyən ardıcıllıqla hərəkət etməli, eləcə də öz aralarında razılaşdırılmalı və qarşılıqlı əlaqədə olmalıdırlar.

Yuxarıda qeyd edilənləri ümumiləşdirməklə, Azərbaycanda innovasiya sahibkarlığının stimullaşdırılmasının sistem modelini qura bilərik (Şəkil 2).




**Şəkil 2. İnnovasiya sahibkarlığının stimullaşdırılması mexanizmlərinin sistem modeli.**

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı monoqrafiya, məqalə və tezislərində öz əksini tapmışdır:

1. Müasir dövrdə dövlətin sənaye siyasətinin əsas istiqamətləri / "Dövlət və bazar iqtisadiyyatına keçidin tənzimlənməsi problemləri" Ümumrespublika Elmi-Nəzəri Konfransının Tezisləri. Bakı, BAU, 1998, s. 110-113.

2. Sahibkarlıq sahəsində stimullaşdırmanın xüsusiyyətləri / Respublika Gününə həsr olunmuş "Müstəqillik yollarında: Problemlər, perspektivlər" mövzusunda elmi-praktik konfransın materialları, Bakı, BDU, 2002, s. 114-115.

3. Azərbaycanda 70-80-cı illərdə iqtisadi həvəsləndirmə fondlarından istifadənin xüsusiyyətləri / Respublika Gününə həsr olunmuş "Müstəqillik yollarında: Problemlər, perspektivlər" mövzusunda elmi-praktik konfransın materialları, Bakı, BDU, 2002, s. 115-119.

4. İnkişaf etmiş ölkələrdə yeni stimullaşdırıcı amillərə dair / "Azərbaycan İqtisadiyyatı Yüksəliş Yolunda". Məqalələr Toplusu II (X) Buraxılış. Bakı, AMEA II, 2002, s. 352-357.

5. Müasir Azərbaycan sənayesində xarici kapitalın stimullaşdırılması məsələləri / "Azərbaycan İqtisadiyyatı Yüksəliş Yolunda". Məqalələr Toplusu IV (XIII) Buraxılış. Bakı, AMEA II, 2003, s. 519-523.

6. Maddi həvəsləndirmə və əmək məhsuldarlığı / "Azərbaycan İqtisadiyyatı Yüksəliş Yolunda". Məqalələr Toplusu V (XIV) Buraxılış. Bakı, AMEA II, 2003, s. 261-267.

7. İqtisadiyyatın və işçilərin idarə edilməsi modellərinin bəzi nəzəri əsasları haqqında / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin Anadan Olmasının 80 İllik Yubileyinə Həsr Olunmuş Elmi-Praktik Konfransın Mareriallarɪ. Bakı, BDU, 2003, s. 116-118.

8. История возникновения и развития рекламы // "Вопросы гуманитарных наук.", Москва, 2010, № 1 (45), с. 48-58.

9. Müasir dövrdə sahibkarlığın stimullaşdırılmasının əsas istiqamətləri // İqtisad Elmləri: Nəzəriyyə və Praktika, Rüblük nəzəri və elmi-praktiki jurnalı, 2010, № 3, s. 206-211.

10. Sahibkarlığa dövlət köməyinin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri // İqtisad Elmləri: Nəzəriyyə və Praktika. Rüblük nəzəri və elmi-praktiki jurnalı, 2010, № 4, s. 155-166.

11. Bazar iqtisadiyyatında sahibkarlıq fəaliyyətinin konseptual məsələləri // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri – 2, Bakı, 2011, s. 97-104.

12. Sahibkarlığın stimullaşdırılmasının regional problemləri // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri – 4, Bakı, 2011, s. 194-201.

13. Sahibkarlıq fəaliyyətində maliyyə-kredit stimullaşdırılmasının mövcud vəziyyətinin və inkişaf meyllərinin qiymətləndirilməsi // "Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Elm və İnnovasiya seriyası", 2011, № 4 (8), s. 49-57.

14. Milli sahibkarlığın inkişafının iqtisadi mexanizmləri / "Milli İqtisadiyyatın İnkişafı və Səmərəliliyinin Yüksəldilməsi" Beynəlxalq elmi-praktik konfransın materialları (27-28 iyun 2012 ci il), s. 266-269.

15. Vergi yükünün sahibkarlıq fəaliyyətinə təsiri // Azərbaycanın Vergi Jurnalı, 2012, № 4, s. 171-179.

16. Вопросы Государственного Стимулирования Развития Малого Предпринимательства // Перспективы Науки, 2012, № 5(32), s. 72-75.

**Талех Балага оглы Акберов**

## Совершенствование использования стимулирующих факторов в предпринимательской деятельности

## Резюме

Диссертация состоит из введения, трех глав, выводов, предложений и списка использованной литературы. Во введении диссертации обоснована актуальность темы, определена уровень изученности проблемы, сформированы цели и задачи исследования, ее теоретические и методологические основы, раскрыты научной новизна и практическая значимость работы.

В первой главе исследования под называнием «Теоретические основы стимулирования предпринимательской деятельности» предпринимательская деятельность была исследована в качестве стратегического ресурса развития национальной экономики, изучены экономические механизмы государственной поддержки предпринимательства в зарубежной и отечественной практике, определены формы стимулирования предпринимательской деятельности.

Во второй главе диссертации «Формирование предпринимательской среды и оценка воздействия стимулирующих факторов к сфере предпринимательства» рассмотрены особенности формирования предпринимательского климата в Азербайджане, оценены современное состояние и тенденции развития инвестиционной политики государства, были проанализированы влияние налоговых и ценовых факторов к предпринимательской деятельности.

В третьей главе диссертации «Проблемы совершенствования использования стимулирующих механизмов в предпринимательской деятельности» даны основные направления государственной политики по стимулированию предпринимательства, раскрыты проблемы регионального управления стимулирования предпринимательства, определены экономические механизмы стимулирования инновационного предпринимательства.

В конце работы обобщены основные научные и практические результаты, полученные в ходе исследования, а также даны рекомендации по совершенствованию использования стимулирующих факторов в предпринимательской деятельности.

**Taleh Balaga oglu Akbarov**

**The improving use of the stimulating factors in the entrepreneurial activity**

**Summary**

Inclination to rise at this stage of economic development and its role in promoting entrepreneurship and the need for improvement specifies issue of the relevance and importance of research.

In the introduction of the thesis was proved the urgency of the theme, specified the purpose and tasks of the research, the object and subject of research, indicated practical and theoretical significance, scientific novelty, reviewed the main research methods, sources and structures of the thesis.

In the first chapter entitled, “Theoretical fundamentals of promoting entrepreneurial activity” was investigated the business activities as a strategic resource of national development economy, were studied economic mechanisms of state support for entrepreneurship in Azerbaijan and foreign practice, identified a form and trends of promoting entrepreneurial activity.

In the second chapter entitled, “The formation of entrepreneurial environment and stimulating factors the impact assessment of the entrepreneurial sector”, was investigated the characteristics of the formation of the business climate in Azerbaijan, assessed the current state of the state's investment policies to encourage entrepreneurship and development trends, analyzed the impact of tax and price factors to the entrepreneurship activity/

Entitled in the third chapter, “The improving problems of the use stimulating mechanisms in entrepreneurship activity” was given the main directions of the state policy for the stimulate entrepreneurship, investigated the regional management problems of stimulating entrepreneurship, identified economic mechanisms of stimulating innovation entrepreneurship.

At the end of the thesis generalized an important scientific and practical results obtained in the course of research, as well as recommendations

Çapa imzalanmışdır: 13.11.2015
Formatı: 60/84, 16/1
Sifariş: 85
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ТАЛЕХ БАЛАГА ОГЛЫ АКБЕРОВ**

# СОВЕРШЕНСТВОВАНИЕ ИСПОЛЬЗОВАНИЯ СТИМУЛИРУЮЩИХ ФАКТОРОВ В ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**Специальность: 5307.01 – Экономическая теория**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени
доктора философии по эканомике**

**НАХЧЫВАН – 2015**